**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№039/290**

**Bakı şəhəri** "06" sentyabr **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2021-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Pakistan İslam Respublikasının Pəncab (Punjab), Şimal-Qərb Frontier (North-West Frontier) regionlarında, Moldova Respublikasının Faleşti (Fălești) rayonunda, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Cənubi Dakota (South Dakota), Kolorado (Colorado), Miçiqan (Michigan), Pensilvaniya (Pennsylvania), Nebraska (Nebraska), Nevada (Nevada) ştatlarında, Argentina Respublikasının isə Buenos-Ayres (Buenos-Aires), Rio-Neqro (Río Negro), Neuqen (Neuquén), Kordova (Córdoba), Santa-Fe (Santa-Fe), Çubut (Chubut), Entre-Rios (Entre Ríos) əyalətlərində qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkələrin sadalanan inzibati ərazi vahidlərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, YPQQ xəstəliyinin baş verməsinə görə sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərinə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2021-ci il 13 sentyabr tarixli 052/147 nömrəli qərarla Pakistan İslam Respublikasının Pəncab regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2021-ci il 10 dekabr tarixli 074/169 nömrəli qərarla Pakistan İslam Respublikasının Şimal-Qərb Frontier regionuna tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2022-ci il 10 avqust tarixli 045/220 nömrəli qərarla Moldova Respublikasının Faleşti rayonuna tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 2022-ci il 14 mart tarixli 019/194 nömrəli qərarla ABŞ-ın Cənubi Dakota ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 2022-ci il 20 aprel tarixli 025/200 nömrəli qərarla ABŞ-ın Kolorado ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 2022-ci il 27 aprel tarixli 028/203 nömrəli qərarla ABŞ-ın Miçiqan və Pensilvaniya ştatlarına tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 2022-ci il 17 oktyabr tarixli 058/233 nömrəli qərarla ABŞ-ın Nebraska ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.8.** 2022-ci il 28 oktyabr tarixli 061/236 nömrəli qərarla ABŞ-ın Nevada ştatına tətbiq edilmiş məhdudiyyət;

**1.9.** 2023-cü il 13 mart tarixli 011/262 nömrəli qərarla Argentina Respublikasının Buenos-Ayres və Rio-Neqro əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.10.** 2023-cü il 17 mart tarixli 012/263 nömrəli qərarla Argentina Respublikasının Neuqen əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.11.** 2023-cü il 10 aprel tarixli 015/266 nömrəli qərarla Argentina Respublikasının Kordova və Santa-Fe əyalətlərinə tətbiq edilmiş məhdudiyyət;

**1.12.** 2023-cü il 18 aprel tarixli 017/268 nömrəli qərarla Argentina Respublikasının Çubut əyalətinə tətbiq edilmiş məhdudiyyət;

**1.13.** 2023-cü il 6 iyun tarixli 024/275 nömrəli qərarla Argentina Respublikasının Entre-Rios əyalətinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer